# MÜASIR MƏRHƏLƏDƏ KİTABXANALARDA DÖVLƏTÇİLİYİN TƏBLİĞİ SAHƏSİNDƏ YENİ İNNOVASİYALAR

ƏLİZADƏ.H.Ə.
***BDU, Kitabxanaşünaslıq kafedrasının dissertantı***
***habibalizade.91@gmail.com***

*Məqalədə müasir dövrdə dövlətçiliyin təbliği sahəsində kitabxanalarda tətbiq edilən yeni innovativ üsullardan bəhs edilir.*
***Açar sözlər:*** *dövlətçilik, elm, mədəniyyət, informasiya, təhsil, tərbiyə, kitabxana işi.*

Azərbaycan Respublikası müstəqil bir dövlət kimi Avropa tələbləri səviyyəsində demokratik dövlət quruculuğu prosesini sürətləndirir, xalqımızın milli-mənəvi dəyərlərini qorumaq, ölkəmizdə vətəndaş cəmiyyətinin və multikulturalizm mühitinin inkişaf etdirilməsi uğrunda qətiyyətli siyasi mövqe nümayiş etdirir. Ölkədə müvafiq sahələrdə uğurlu dövlət siyasəti həyata keçirilir. Bu baxımdan müasir mərhələdə Azərbaycanda digər sahələrdə olduğu kimi kitabxanalarda da dövlətçiliyin təbliğinin ictimai-siyasi, sosial-mədəni, elmi və kulturaloji əsaslarının araşdırılmasına, eləcə də, bu siyasətin istiqamətləndiyi sosial sahələrin elmi-nəzəri təhlilinin aparılmasına böyük ehtiyac vardır. Belə araşdırmalardan biri kimi ilk öncə kitabxana işi anlayışının mahiyyəti açıqlanmış, sonra kitabxanalarda dövlətçiliyin təbliğinin elmi-metodoloji təhlili verilmişdir.

Kitabxanalar öz iş prinsipləri ilə tarixən formalaşmış zəngin kitab fondları vasitəsilə sosial bir institut kimi bəşər sivilizasiyasının tərəqqisində mühüm rol oynamışlar. Kitabxanaların inkişafı fəaliyyət göstərdikləri məkan və zaman daxilində ictimai təsisat kimi daim ətrafdakı sosial mühitdən asılı olmuş və onların fəaliyyəti, cəmiyyətdə tutduğu mövqeləri də məhz cəmiyyətin özünün sosial tələbləri ilə bağlı olmuşdur. Hazırda dünyanın bir çox qabaqcıl ölkələrində inkişafın müasir mərhələsində olan kitabxanalar öz fəaliyyətini qlobal informasiya cəmiyyətinin sosial tələblərinə uyğun davam etdirir. Müasir dövrdə Azərbaycan kitabxanalarının da fəaliyyətini bu istiqamətdə davam etdirməsi məqsədilə dövlət tərəfindən müvafiq tədbirlər həyata keçirilir, bu sahədə dünya təcrübəsi öyrənilir və ölkə kitabxanalarında tətbiqi imkanları araşdırılır.

Cəmiyyətin kitabxanaların qarşısına qoyduğu vəzifələrin sistem halında formalaşan, geniş və mürəkkəb struktura malik olan kitabxana işi tərəfindən həyata keçirildiyini nəzərə alaraq, bu mühüm prosesin elmi təşkili böyük aktuallıq kəsb edir. Müasir şəraitdə cəmiyyətin inkişafında informasiyanın çəkisi artdıqca, onun cəmiyyət üzvlərinin əsas tələbatına çevrilməsi kitabxana işinin də əhəmiyyətini artırır. Məhz bu baxımdan müasir mərhələdə kitabxana işi anlayışının terminoloji cəhətdən düzgün müəyyənləşdirilməsi və dəqiqləşdiril-

məsi, ümumi xarakteristikasının sistem halında öyrənilməsi və strukturunun müəyyənləşdirilməsi kitabxanaşünaslıq sahəsində mühüm elmi və təcrübi əhəmiyyətə malikdir.

Kitabxana işi dedikdə elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə sahəsində vətəndaşların və onların birliklərinin fəaliyyəti başa düşülür. Bu fəaliyyət sahəsi özündə kitabxana şəbəkələrinin yaradılması və inkişaf etdirilməsi, onların fondunun formalaşdırılması və işlənməsi, kitabxanada işin təşkili və idarə olunması, oxuculara kitabxana-informasiya, soraq-biblioqrafiya xidmətinin təşkili, mütəxəssis kitabxanaçı kadrların hazırlanması, kitabxanaların elmi-metodik təminatının həyata keçirilməsi, maddi-texniki bazanın yaradılması və inkişaf etdirilməsi, müasir şəraitdə kitabxana işinin kompüterləşdirilməsi və s. komponentləri birləşdirir. Kitabxana işinin strukturuna daxil olan bu komponentlərin birgə fəaliyyəti, kitabxana işinin mövcudluq formasıdır və onun əsas işləmə prosesini formalaşdırır.

Müstəqil Azərbaycan dövlətinin digər sahələrdə olduğu kimi kitabxana işi ilə əlaqədar özünəməxsus siyasəti vardır. Bu siyasətin formalaşmasında və təkmilləşməsində sahə üzrə bir sıra ciddi problemlər həll edilmiş, dünya dövlətlərinin təcrübəsindən bəhrələnərək olduqca demokratik kitabxana siyasətinin əsası qoyulmuş, onun bünövrəsi yaradılmışdır. Bu siyasətin elmi-fəlsəfi və sosial-siyasi əsasını Ümummilli Liderimiz Heydər Əliyevin kitabxananı xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyi kimi dəyərləndirdiyi fikir təşkil edir. Qeyd edək ki, bu siyasət son 16 ildə ölkə Prezidenti, cənab İlham Əliyevin xüsusi qayğısı ilə müvəffəqiyyətlə davam etdirilir. Çünki, müasir informasiya cəmiyyəti şəraitində kitabxanaların kommunikasiya sistemində rolu və əhəmiyyəti elə bir səviyyəyə gəlib çatmışdır ki, kitabxalarsız cəmiyyətin informasiya tələbatını ödəmək qeyri-mümkündür. Bu baxımdan hazırki mərhələdə ölkəmizin kitabxana şəbəkəsinin inkişafı dövlətin daxili siyasətinin əsas prioritetlərindən birini təşkil edir.

Müəyyən bir sahəyə dair dövlət siyasətinin həyata keçirilməsi, eləcə də, kitabxanalarda dövlətçiliyin təbliği sahəsi çox mürəkkəb bir proses olmaqla cəmiyyətdə baş verən hadisələrlə, onların təhlili və yeni ideyaların, fikirlərin ümumiləşdirilməsi ilə əlaqədardır. İctimai həyatın müxtəlif sahələrində olduğu kimi kitabxana işi sahəsində dövlətçiliyin təbliği aşağıdakı əsas əlamətləri özündə əks etdirir:

- Cəmiyyətin dinamik inkişaf istiqaməti prosesində kitabxana işi sahəsində qarşıya çıxan prioritet məsələləri irəli sürmək, nəzərdə tutulmuş vaxtda bu sahədə əldə ediləcək perspektivləri və yaxın zaman üçün kitabxana işinin inkişafında düzgün və real məqsədləri aydın müəyyənləşdirmək;
- Kitabxana işinin inkişafı istiqamətində qarşıya qoyulan məqsədlərə ən optimal və ən qısa vaxtda çatmağı təmin edən fəaliyyət və təşkilati metodları, vasitələri və formaları zamanında işləyib hazırlamaq;





- Bu sahənin inkişafı üzrə hazırlanan təşkilati metod, vasitə və formaları mərhələlərlə yerinə yetirməyi bacaran mütəxəssis kadrları yetişdirmək.

Beləliklə, kitabxanalarda dövlətçiliyin təbliği kitabxana işinin inkişafını təmin etmək üçün, müasir şəraiti və yaxın gələcəyi nəzərə alaraq, bir çox alternativ, müxtəlif fikirlər və ideyalar içərisindən seçilərək formalaşdırılmış, düşünülmüş və qəbul edilmiş qərarların icrası prosesidir. Müstəqil Azərbaycanda bu prosesin icrası məqsədilə qərarların qəbul edilməsi zamanı kitabxana işinə kompleks sosial-mədəni sistem kimi baxılmış, bu sistem haqqında dövlət siyasətinin həyata keçirilməsində cəmiyyətdə baş verən bütün proseslərə, inkişaf istiqamətlərinə ciddi fikir verilmiş, informasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri nəzərə alınmışdır. Eyni zamanda kitabxana işi sahəsində dövlətçiliyin təbliği sahəsinin hazırlanması və həyata keçirilməsi prosesində kitabxana işinin keçdiyi yola, kitabxanaların əldə etdiyi tarixi təcrübəyə və kitabxana işinin müasir vəziyyətinə də önəm verilmişdir.

Hazırda kitabxana işində reallaşdırılan innovativ dövlətçilik təbliği kitabxanaların davamlı inkişafının stimullaşdırılmasına yönəlmiş, dolğun, təşkilati-struktur cəhətdən yenilənməsi, bütün proseslərin texnoloji cəhətdən müasirləşməsi, həmçinin personalın peşəkar şüurunda pozitiv dəyişikliklərin meydana gəlməsi hesabına həyata keçirilən fəaliyyət kimi başa düşülür.

Beləliklə, sosial institut olaraq kitabxana işi və bu istiqamətdə həyata keçirilən dövlətçiliyin təbliği qarşılıqlı əlaqələrinin öyrənilməsi, xüsusilə də bu sahənin istiqamətləndiyi sosial sahələrin nəzəri əsaslarının və elmi-metodoloji təhlilinin verilməsi müasir kitabxanaşünaslığın qarşısında duran əsas vəzifələrindən biridir. Çünki, müasir dünya və Azərbaycan kitabxanaşünaslığında kitabxanalar cəmiyyətdə elmə, informasiyaya, mədəniyyətə, təhsilə və tərbiyəyə xidmət göstərən sosial institut kimi qiymətləndirilir. Dünya kitabxanaşünaslığında olduğu kimi, bir çox ölkələrdə, o cümlədən Azərbaycanda da kitabxana işi ilə bağlı qəbul edilmiş qanunlarda kitabxanalar məhz sosial institut adlandırılır, dövlət mədəniyyət sisteminin mühüm təsisatlarından biri kimi onların qarşısında çox əhəmiyyətli sosial vəzifələr qoyulur.

Azərbaycan Respublikasının Milli Məclisinin 1998-ci il 29 dekabr tarixində qəbul etdiyi «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununda da təsbit olunduğu kimi, kitabxanaşünaslıq baxımından kitabxanalar elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə funksiyalarını həyata keçirən sosial institutlardır. Bu funksiyalar da öz növbəsində kitabxanalarda dövlətçiliyin təbliği sahəsinin istiqamətləndiyi əsas sosial sahələr kimi xarakterizə edilir ki, kitabxanaların cəmiyyətin sosial həyatı ilə bilavasitə əlaqədar olan bir təsisat kimi dinamik inkişafında onların elmi-metodoloji təhlilinin həlledici rolu vardır.

Kitabxanaşünaslıq sahəsində apardığımız araşdırma zamanı həm hüquqi, həm də elmi-nəzəri cəhətdən aydın olur ki, müstəqillik dövründə Azərbaycan kitabxanalarında dövlətçiliyin təbliği 5 sosial sahə istiqamətində aparılmışdır.

Dünyada və Azərbaycanda kitabxana işinin tarixinə nəzər saldıqda belə bir faktla qarşılaşırıq ki, kitabxanalar öz tarixi inkişaf dövründə elmi müəssisə kimi formalaşmış, onların fəaliyyətində elmi tərəqqiyə xidmət əsas yer tutmuşdur. Hazırda respublikamızda fəaliyyət göstərən 800-dən artıq elmi və elmi-texniki kitabxana ölkədə elmi-tədqiqat işinin inkişafına xidmət edir. Beləliklə, ilk öncə elm sahəsinin inkişafına istiqamətlənən dövlətçiliyin təbliğinin əsas prinsipini respublikada vətəndaşların elmi yaradıcılıq və tədqiqat azadlığı təşkil edir. Elm istiqaməti üzrə dövlətçiliyin təbliğinin əsas məqsədi elmin məhsuldar və innovativ qüvvəyə çevrilməsi üçün kitabxana-informasiya müəssisələrində lazımi şəraitin yaradılmasından ibarətdir. Eyni zamanda elm, təhsil, iqtisadiyyat və cəmiyyətin qarşılıqlı münasibətlərində interaktiv bağlılığın və dialektik vəhdətin təmin edilməsi də elmin inkişafına istiqamətlənən vəzifələrindən biridir.

Hazırda ölkəmizdə elm sahəsində dövlətçiliyin təbliği dövlətin və cəmiyyətin inkişafının bütün sahələrinin maraqları və resurs potensialı nəzərə alınmaqla formalaşdırılır və həyata keçirilir. Azərbaycan Respublikasında dövlət bütün elmi fəaliyyət subyektlərinə kitabxanalarda azad, ədalətli, bərabərhüquqlu, sağlam və keyfiyyətli elmi fəaliyyət mühitinin yaradılmasını təmin edir, elmi qabiliyyəti olan hər bir vətəndaşa kitabxanalarda elmlə məşğul olmaq, elmi səviyyəsini yüksəltmək və yaradıcılığını təkmilləşdirmək üçün lazımi şərait yaradır. Dövlətçiliyin təbliği ölkəmizdə elmin səmərəli təşkili, idarəedilməsi, inkişafı, zəruri kitabxana-informasiya vasitələrinin təmin olunmasına xüsusi diqqət yetirir. Bu sahədə dövlətimizin Azərbaycan xalqının özünəməxsusluğunun, milli və mənəvi dəyərlərinin qorunması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi, Azərbaycan tarixinin, milli-mədəni irsinin öyrənilməsi üçün Azərbaycanşünaslıq və diyarşünaslıq sahəsində aparılan tədqiqatların prioritetlərinin reallaşdırılmasında iştirak edən elmi və elmi-texniki kitabxanaları strateji əhəmiyyətli hesab edir. Müasir mərhələdə informasiyalaşdırma sahəsinə istiqamətlənən dövlətçiliyin təbliğinin əsas prioritetlərini ölkədə vahid milli kitabxana-informasiya fəzasının formalaşdırılması, kitabxanalarda informasiyalaşdırma üzrə fəaliyyətin başlıca istiqamətlərinin təyini və meydana çıxan münasibətlərin tənzimlənməsi təşkil edir. Bu prioritetlərin həyata keçirilməsi zamanı dövlət kitabxana-informasiya ehtiyatları, sistemləri, texnologiyaları və onların təminat vasitələri üzərində mülkiyyətin bütün formalarının inkişafına, müasir kitabxana-informasiya məhsulları və xidmətlərinin formalaşmasına yardım göstərir və onların mühafizəsi üçün zəruri şəraiti yaradır. Eyni zamanda ərazi kitabxana-informasiya şəbəkələrinin yaradılması, onların respublika və beynəlxalq kitabxana-informasiya şəbəkələri ilə uzlaşması, qarşılıqlı əlaqəsinin təmin edilməsi üçün lazımi təşkilati, hüquqi, texniki dəstəyin göstərilməsi dövlətçiliyin təbliği istiqamətindəki vəzifələrindən birini təşkil edir.





Azərbaycanda dövlət mədəniyyət sisteminin əsas təsisatlarından biri kimi kitabxanalarda dövlətçiliyin təbliği istiqamətində mədəniyyət sahəsi digər sosial sahələr içərisində ən önəmli yer tutur. Bunun əsas səbəbi kitabxananın mədəniyyət funksiyasının onun digər sosial funksiyalarını formalaşmasına yaxından köməklik etməsi və onlarla dərin qarşılıqlı əlaqədə olmasındadır. Çünki, kitabxanalar mədəniyyətin mühüm və ayrılmaz sahəsi, mədəni inkişafın əsas göstəricilərindən biri kimi bəşəriyyətin yaratmış olduğu mədəni sərvətlərin qoruyucusu və təbliğatçısıdır.

Mədəniyyət sahəsində kitabxanalarda dövlətçiliyin təbliğinin əsas prinsipləri sosial və maddi vəziyyətindən, milli, irqi, dini və cinsi mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşın kitabxanaların mədəniyyət sərvətlərinin yaradılmasında, istifadəsində və yayılmasında hüquq bərabərliyi və kitabxanaların zəngin sənəd fondlarının milli mədəniyyətin tərkib hissəsi kimi inkişaf etdirilməsindən ibarətdir. Kitabxana xidməti vasitəsilə yeniyetmə və gənclərdə mədəni həyat tərzinin formalaşdırılması, kitabxanaların milli-mədəni sərvətlərinə qovuşmağa yönəldilən təhsil sisteminin inkişaf etdirilməsi, bu sərvətlərin qorunması və artırılması, mədəniyyət sahəsinin mühüm tərkib hissəsi kimi kitabxanaların geniş miqyaslı beynəlxalq əməkdaşlığına şəraitin yaradılmasını, onun elmi və mütərəqqi metodlarla idarəçiliyinin təmin edilməsi mədəniyyət sahəsində dövlətçiliyin təbliğində əsas vəzifələri təşkil edir.

Təhsil sistemi geniş, əhatəli və mürəkkəb bir sistem kimi mədəni quruculuğun bütün sahələri, o cümlədən kitabxanalar bu sistemdə iştirak edir, öz fəaliyyəti ilə təhsil prosesinin müvəffəqiyyətli təşkilinə töhfəsini verir. Məlumdur ki, kitabxanalar qədim dövrlərdən başlayaraq zəmanəmizə qədər həmişə təhsillə bağlı olmuş və təhsil prosesinin inkişafına xidmət göstərmişdir. Beləliklə, təhsil sistemində ardıcıl olaraq iştirak etmək, onun təşkilinə köməklik göstərmək, sistemləşdirilmiş bilik, bacarıq və vərdişləri yaş xüsusiyyətlərindən asılı olaraq təhsil prosesinin bütün iştirakçılarına, şagirdlərə, tələbələrə, magistrantlara, dissertantlara və doktorantlara, eləcə də fasiləsiz təhsillə məşğul olan yaşlı nəslə müasir mərhələdə dövlətçiliyin təbliği təhsil sahəsinin əsas vəzifələridir. Bu vəzifələri həyata keçirtməklə dövlət sinifdənkənar oxunun məzmununa uyğun olaraq onu istiqamətləndirmək, beləliklə də, dərsin mənimsənilməsində mühüm rolu olan sinifdənkənar mütaliənin təşkilinə lazımi dəstək göstərmiş olur. Çünki, təhsil sisteminin çoxillik təcrübəsi təsdiq edir ki, sinifdənkənar mütaliə tədris olunan fənnin daha dərindən mənimsənilməsində, şagirdlərin ümumi mədəni inkişaf səviyyəsinin yüksəlməsində, onların əqli və intellektual inkişafında olduqca mühüm rol oyanır.

Məlumdur ki, mütaliə prosesi insanın idraki fəaliyyətinin bir növü kimi onun tərbiyəsində digər informasiya növləri ilə müqayisədə əvəzedilməz üstünlüklərə malikdir. Bu baxımdan kütləvi mütaliənin təşkilatçısı kimi kitabxanaların tərbiyə prosesində xüsusi rolu vardır. Dövlət tərəfindən tərbiyə ocaqla-

rı kimi qiymətləndirilən kitabxanaların qarşısında mühüm vəzifələr qoyulmuşdur. Bu vəzifələrin həyata keçirilməsi məqsədilə ictimai mütaliənin təşkilatçısı olan kitabxanalarda dövlətçiliyin geniş xalq kütləri arasında təbliği yolu ilə onların tərbiyəsində yaxından iştirakını təmin etmək tərbiyə sahəsində əsas prioritetlərini təşkil edir.

Nəticə olaraq qeyd edək ki, kitabxanalarda dövlətçiliyin təbliğinin istiqamətləndiyi sosial sahələrin elmi-metodoloji təhlili bir daha təsdiq edir ki, dövlət qayğısından bəhrələnən kitabxanalar cəmiyyətin həqiqi demokratik institutu kimi insan hüquqları və azadlıqlarının qarantı, ümumbəşəri sərvətləri xalqa çatdırmaq vasitəsi, milli mədəniyyətimizin, milli mentalitetimizin və ölkəmizdə mövcud olan multikulturalizm mühitinin əsas təbliğatçısı rolunu oynayır.

## ƏDƏBİYYAT


1. *Xələfov A.A Kitabxanaşünaslığa giriş: Dərslik: 3 hissədə: h. 1-2.-B.; Bakı Universiteti nəşriyyatı, 2001.-400s*
2. *Xələfov A.A Kitabxanaşunaslığa giriş: Dərslik: 3 hissədə: h.3 : Kitabxana işi haqqında təlim.-B.: Bakı Universiteti nəşriyyatı, 2003.-314s.*
3. *Xələfov A.A. Kitabxanalarda milli ideologiyanın və dövlətçiliyin təbliği problemləri // Kitabxanaşünslıq və informasiya.- №.1.- S.3-26*
4. *Xələfov A.A. Kitabxanaşünaslığın tarixi və metodologiyası. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2014.-552s*
5. *Xələfov A.A. Kitabxana və Cəmiyyət: Monoqrafiya.-Bakı: "Azərnəşr",2011.-348s.*
6. *Cəfərov N. Azərbaycanşünaslığın əsasları. — Bakı: Pedaqogika, 2005. —256 səh.*
7. *Xəlilov.S. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi.- Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2002.- 232 səh.*


## НОВЫЕ ИННОВАЦИИ В ОБЛАСТИ ПРОПАГАНДЫ ГОСУДАРСТВЕННОСТИ В БИБЛИОТЕКАХ НА СОВРЕМЕННОМ ЭТАПЕ

**АЛИЗАДЕ Г.А.**

***РЕЗЮМЕ***

*В статье освещаются новые инновационные методы, используемые в библиотеках для продвижения государственности в современную эпоху.*

***Ключевые слова:*** *Государственность, наука, культура, информация, образование, воспитание, библиотечная работа.*





## NEW INNOVATIONS IN THE AREA OF PROMOTE STATEHOOD IN LIBRARIES IN MODERN STAGE

**ALIZADEH H.A.**

***SUMMARY***

*The article discusses new innovative methods used in libraries to promote statehood in modern times.*

***Key words:*** *Statehood, science, culture, information, education, upbringing, library work*